# SİMURQ KİMİ YANIB, KÜLÜMDƏN YENİDƏN DOĞMALIYAM





Aygün Süleymanova
*teatrşünas*

Teatr ilgisi olan hər kəs üçün maraqlı xəbər: yeni teatr açılır: Human. Bu xəbərə biganə qala bilməyib teatrın həmtəsisçisi, bədii rəhbəri, rejissoru tanınmış aktyor Pərviz Məmmədrzayev ilə görüşdük. "Bəyin oğurlanması" filmində bir fraqment var. Rəhmətlik Həsənağa Turabov müxbirə müsahibə verir. Hacı İsmayılov Səyavuş Aslandan "bu neynir?" soruşur. O da cavabında: "Heç, çəkmədiyi filminin müsahibəsini verir" deyir. İndi də biz hələ açılmayan teatrdan danışacağıq...

**- Pərviz müəllim sizi təbrik edirəm, inşaAllah uğurlu olar.**

- Çox sağ olun.

**- İnanaq ki, yeni açılan bəzi teatrların aqibətini yaşamazsınız.**

- Vallah, bizim istəyimiz heç bir kəslə, heç bir teatrla yarışmaq deyil. Kim olmağından asılı olmayaraq teatrla sağlam məntiqlə, sağlam ruhla məşğul olan kəs mənim əqidə qardaşımdır. İndi hərənin bir qisməti var. Birində uğur olur, birində uğursuzluq. Məsələn, mən Simsar teatr-studiyasını yaratmışdım. Üç il uğurlu fəaliyyət göstərdi, yetərincə tanındı, hətta bir müddət mətbuatda işıqlandırıldı, ancaq qismət bura kimi imiş. Fəaliyyətimizi dayandırdıq.

**- Simsar teatrından söz düşmüşkən, Human teatrı Simsarın davamıdır yoxsa, tamamilə yeni başlanğıcdır?**

- Bilirsiz, bir filosof demişdir ki, eyni axar suya ikinci dəfə girmək mümkün deyil. Təbii olaraq çox şey dəyişib. Dörd ilə yaxın vaxt keçib. O vaxta qədər mən də çox şeyləri götür-qoy eləmişəm. Ancaq bu mənim istəyimdi. Bir balaca ola bilsin formasını dəyişib. Mən də dəyişmişəm təbii olaraq. Bu da mənim istəyimin, arzularımın məhsuludur.

**- Səhv etmirəmsə siz, Simsar teatrının fəaliyyətini Akademik Dram teatrının kiçik səhnəsində davam etdirmisiz və bir müddət sonra dayandırmısız...**

- Bəli. Simsarın aktyorları, eləcə də əlavə aktyorlar da gəldi ora. Aktyorlar deyəndə tələbələri nəzərdə tuturam. Dəyişiklikdən sonra yəqin ki, istəmədilər orada artıq adam olsun.

**- "Human" nəyi ifa edir?**

- Human inglis dilindən tərcümədə insan deməkdir. Və bunun alt mənası da var, ancaq biz bunu heç kimə deməyəcəyik (gülür). Şükür Allaha tamaşa hazırdır. İnşallah gəlib görəcəysiz. İndi mən deyirəm hazırdır. Təbii ki, mənim nəzərdə tutmadığım müəyyən şeylər ola bilər, hər bir hadisə tamaşanın gedişatında nəyisə dəyişə bilər, tamaşanın hansısa bir hissəsi uğurlu, yaxud uğursuz keçə bilər. Amma, dünən də aktyorlar mənə sübut etdilər ki, tamaşa var.

**- Human teatrı olaraq siz tamaşaçıya nə vəd edirsiz?**

- Mən əllaməlik eləmək istəmirəm. Mən ilk növbədə səmimiyyət istəyirəm...

**- Tamaşaçılardan ya özünüzdən?**

- ...özümüzdən əlbəttə. Tamaşaçı bizim görüşümüzə gəlirsə bu artıq onun səmimiyyətini göstərir. Mən özümdən səmimiyyət istəyirəm ki, tamaşaçı qarşısına səmimi çıxım. Mən rejissorluq ixtisasını bitirmişəm, ancaq döşümə döymürəm ki, mən rejissoram. Çünki dünya ilə səviyyədə biz hələ çox şeyləri edə bilmirik. Təbii ki, ictimai durum, müəyyən ölkələrə çıxışların olmaması səbəbilə biz öz qazanımızda qaynayırıq. Mən istəyirəm ki, bizi narahat edən problemləri camaatla bölüşək. Nadanlıq, gender problemi, qadın-kişi münasibəti, ümumiyyətlə insanlar arasında olan problemlər. Keçən dəfə verilişlərin birində mənə sual verdilər ki, "Pərviz, sənə desələr dünya dağılır, sən yenə teatrla məşğul olarsanmı?" - bəli, mən başqa şeylə məşğul ola bilmirəm sadəcə. Mənim üçün bu dünyada iki dəyər varbir ailəm, bir teatr.

**- Sizcə, teatrınızın tamaşaçısı kimlər olacaq. Kimə ünvanlanıb?**

- Mən düşünürəm ki, hər bir teatrın tamaşaçısı zamanla formalaşır. İlk tamaşaya yəqin ki, yaxınlar, dostlar, həmfikirlər gələcək. Mən ümid edirəm ki, bizim həmfikirlərimiz çox olacaq zalda...

**- Siz teatrın bədii rəhbərisiniz...**

- Bəli, mən təsisçi, bədii rəhbər, Şamil İbrahimov təsisçi, direktordur.

**- Yeni Teatr hansı yaradıcı forma və üsluba əsaslanır?**

- Əsas plastika yönümlü olacaq. Lakin mən sırf pantomima göstərmək fikrində deyiləm. Müxtəlif janrlar olacaq. Çünki aktyorları, tamaşaçıları qəlibə salmaq istəmirəm. Necə ki, eyni yeməyi hər gün yemək mümkün deyil, eləcə düşüncəmizi də dəyişməliyik.

**- Statistik göstəricilərə nəzər saldıqda teatra tamaşaçının az gəldiyinin şahidi oluruq. Sizcə, belə bir şəraitdə teatr yaratmağa dəyər?**

- Vaxt var idi, elmli insanları öldürürdülər. Avropada inkvizisiya tonqalında yandırıblar, Azərbaycanda Mirzə Fətəliyə, Mirzə Cəlilə, Sabirə, Seyid Əzim Şirvaniyə və s. əziyyət veriblər. Amma onlar qələmlərini yerə qoymayıblar. Biz də əziyyət çəkməliyiksə, çəkəcəyik.

**- Human teatrı hansı teatrlarla rəqabət apara bilər, dövlət ya özəl?**

- Bayaq dedim, biz kiminləsə rəqabət aparmaq fikrində deyilik. İstər dövlət teatrı olsun, istər özəl. Özəl teatrlardan M. Teatrı, Əsa teatrı bizim qardaşımızdı. Qardaş arasında rəqabətdən söz gedə bilməz. M. Teatrının bədii rəhbəri mənim əzizim, sevdiyim insan Vidadi Həsənovdur. Oranın aktyorları mənim qardaşlarım, dostlarımdır. Əsa teatrı ilə biz bir damın altındayıq. Bizim aramızda yalnız rəqabət deməyək, deyişmə ola bilər. Məsələn "mən bunu etdim, buyurun siz daha yaxşısını edin". Bir daha təkrar edirəm rəqabət aparmaq fikrimiz yoxdur. Çünki, mənimlə eyni yola gedən, eyni məqsədə xidmət edən mənim əqidə qardaşımdır. Mən sadəcə cəmiyyətdəki nöqsanlara qarşı öz gücüm yetən qədər mübarizə apara bilərəm.

**- Bir qədər teatrın mətbəxinə müdaxilə etmiş olacam. Necə maliyyəşəcəksiniz, prodüser vasitəsilə ya öz gücünüzə?**

- Təbii ki, öz gücümüzə. Heç bir şey risk olmadan inkişaf eləmir. Bir gün teatr əlbəttə qalib gələcək. Potensial tamaşaçı çoxdur. Onlar beyni dolduracaq lazımsız şeyləri sevmirlər. Mən eyni adamın eyni tamaşaya dəfələrlə gəldiyinin şahidi olmuşam... biz tamaşaçını yetişdirməliyik, bu bizim borcumuzdur. Tamaşaçıya onu maraqlandıran problemləri açmalıyıq, səmimi, sağlam fikri qəbul etməyə hazır olmalıyıq.

**- İlk tamaşa haqqında bir qədər məlumat verərdiniz.**

- Tamaşa "Üçüncü" adlanır. Slovomir Mrojekin "Karol" tragikomediyası əsasında hazırlanıb. Tamaşada üç nəfər çıxış edəcək, Elgün Həmidov, Ziya Ağa, Şamil İbrahimov. Tamaşaya mən quruluş vermişəm. Qeyd edim ki, bu əsər vaxtilə mənim diplom tamaşam olub. Tamaşanın xronometrajı 70 dəqiqədir. Və hesab edirəm ki, pyes bizə nə təklif edirsə, biz onu 70 dəqiqəyə sıxışdıra biləcəyik. Əsər olduqca müasir yazılıb və mənim ora nəsə əlavə etməyim çox mənasız, qondarma olar. Sadəcə aktyorların psixoloji və fizioloji göstəricilərini nəzərə almışam.

**- Bir az sizdən danışaq. Hal-hazırda yaradıcı fəaliyyətiniz necədir, aktyor kimi çıxışlarınız davam edirmi?**

- Xeyr. Heç yerdə oynamıram. Təbii ki, müəyyən təkliflər olur...

**- Səhv etmirəmsə, siz son dəfə rejissor Mikayıl Mikayılovun "İlahi oyun" tamaşasında rol almısız...**

- Bəli. Deyim ki, mən hər rejissorun tamaşasında oynaya bilmərəm. Mikayıl Mikayılov mənə yeni ideya gətirdi və bu ideya məni tutdu. Sabah mənə standart bir tamaşada rol təklif etsələr, ilk olaraq məni inandırmalıdırlar. Standart formada həll olunan tamaşaları mən sevmirəm.

**- Hər hansı bir teatrla əməkdaşlıq edirsinizmi?**

- Xeyr, heç bir teatrla əməkdaşlıq etmirəm.

**- Teatr gündəmini necə, izləyirsiniz?**

- Sözün düzü izləmirəm. Bu bilmirəm xoşbəxtlikdir ya yox, ancaq, mən heç bir yerlə maraqlanmıram. Mən öz problemlərimi həll etməmiş başqasının işlərilə necə maraqlanım?

**- Gələcəkdə siz teatrın repertuarını necə qurmaq fikrindəsiz?**

- Burada yerli və xarici dramaturqların əsərləri ilə yanaşı öz ideyalarımızın məhsulu olan tamaşaları da tamaşaçıya təklif edəcəyik. Bizim artıq ikinci tamaşamız da demək olar ki, hazırdır və "Mənim" adlanan bu tamaşa mənim ideyalarıma əsaslanır.

**- Teatrın tək rejissoru sizsiniz?**

- Xeyr, bizim teatr ideyası olan gənclərə açıqdır. Biz Human teatrını emalatxana tipində qurmuşuq və maraqlı ideyaları olan gəncləri qəbul etməyə, dəstək göstərməyə hazırıq. Sistem gəncləşməlidir. Mən də məcburən cavanlaşmalıyam. Simurq kimi yanıb külümdən yenidən doğmalıyam. Bizim teatr eşqiylə alışıb-yanan gənclərimiz çoxdur və mən buna çox sevinirəm.

**- Sizcə, dövrümüzün gəncləri kimləri nümunə götürüb teatra gəlməlidirlər və ya nəyi görüb gəlməlidir?**

- İndi belə deyək də, mən 1978-79-cu illərdə anamla birgə Akademik Dram Teatrında "Kəndli qız" tamaşasını izləyəndə ovsunlanmışdım. Fuad Poladovu, Mikayıl Mirzəni, Vəfa Fətullayevanı, Ramiz Məliki görüb valeh olmuşdum. İndi isə İncəsənət universitetinin bir sıra tələbələri var ki, vaxtilə bizi görüb sənətə gəliblər. Mənə bir neçə nəfər deyib ki, "sizin tamaşaları izləyib evdə təqlid etməyə çalışırdıq". Tələbələrim indi də yanıma gəlirlər. Biz səhnədə başqa, həyatda başqa olmaq istəmirik. İstəyirik ki, bizi narahat edən nə varsa ondan qurtulaq. Evimdə nə bişirsə süfrəyə onu qoymaq istəyirəm. Biz nəyisə etmək istəyiriksə içimizdən tapıb etməliyik. Dəyişiklik isə olmalıdır və zamanla olacaq.

**- Biz sizə uğur arzu edirik, yolunuz açıq olsun!**



